# Səyyar qəbullar

Rayonumuzun, eləcə də qəsəbə və kəndlərdə əhalinin yaşayış tərzi, yaşadığı problemlər, narahat olduğu şəxsi məsələlər, onların həll olunması icra hakimiyyəti başçısının həmişə diqqət mərkəzində olmuşdur. Məhz buna görə də, qəsəbə və kəndlərdə sakinlərlə səyyar qəbullar keçirilir. İyun ayında rayonumuzun Əmirvan, Xırxatala, Quşlar kəndlərində və Vəndam qəsəbəsində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev ilə səyyar qəbullar keçirilmişdir. Hər bir qəbul zamanı rayon icra hakimiyyətinin və hüquq-mühafizə orqanlarının rəhbərləri tədbir keçiriləcək məkanların şəhidlərinin xatirəsini yad etmiş, şəhidlərə aid abidə komplekslərinin önünə gül dəstələri düzərək, xatirələrini ehtiramla yad etmişlər. Hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərlərinin və kənd ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə keçirilən qəbul zamanı RİH-nin başçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan uğurlu islahatlardan, ölkənin sosial-iqtisadi inkişafından, həyata keçirilən layihələrdən, bu istiqamətdə rayonumuzda görülən və icrası nəzərdə tutulan işlərdən danışaraq sakinlərə ətraflı məlumat vermişdir. Qəbullarda iştirak edən sakinlər kəndin ümumi problemləri, həmçinin onları narahat edən şəxsi məsələləri RİH başçısının nəzərinə çatdırmış, rayonumuzda, eləcə də kəndlərdə, qəsəbələrdə aparılan abadlıq-quruculuq işlərinə görə cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildirmişlər.


Əmirvan kəndi.




Xırxatala kəndi.




Quşlar kəndi.


Vəndam qəsəbəsi.

# Şəhid övladlarının IX Ümumrespublika yarışları

## Şəhid valideynləri ilə görüş

Əsl vətənpərvərlik insanın daxilində ta uşaqlıqdan yaranır və illər keçdikcə də vicdanının diktəsi ilə formalaşır. Vətənpərvərlik hissi öncə ailədən başlanar, təhsil ocaqlarında formalaşar və illər keçdikcə əsl vətəndaş olmaq üçün vətənpərvər insanın daxilində bir təlatüm yaranar. Bu daxili təlatümlər isə insanda vətənə sevgi, yurd məhəbbəti, xalqa hörmət hissi yaradar. Məhz bu sevgi, məhəbbət və hörmət hissini özündə birləşdirən şəxsiyyət kimi formalaşar və insanlığın ən uca zirvəsinə yüksələr. Məhz şəhadətə qovuşanlar və sağlamlığını vətən və xalq üçün itirənlər hər zaman xalqın yaddaşında yaşayırlar. Şəhid məzarları və onların ailələri hər bir vətəndaşın ən müqəddəs ziyarətgahı və and yeridir. Qazilər və şəhid ailələri xalqın - hər kəsin diqqət mərkəzindədir və onların hər biri ilə müntəzəm görüşlər keçirilir.

Qəbələ şəhərində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Təhsil, Gənclər və İdman nazirliklərinin, Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının, Qəbələ RİH-nin dəstəyi və 60 nəfər şəhid övladının iştirakı ilə keçirilən "Gənc xilasedici və yanğınsöndürən" IX Ümumrespublika yarışlarının final mərhələsi çərçivəsində



Silahlı Qüvvələr Günü münasibətilə tədbir keçirilmişdir. Rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının və Vətən müharibəsində qəhrəmanlıqla döyüşərək həyatını itirmiş Qəbələ rayonundan olan şəhidlərin valideynlərinin də iştirak etdiyi tədbirdə öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur. Çıxış edənlər ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu bütün dövrlərdə ordu quruculuğunu, milli hərbi kadrların hazırlanmasını, Silahlı Qüvvələrin təkmilləşdirilməsi və maddi-texniki bazasının gücləndirilməsini daim diqqətdə saxladığını, bu mütərəqqi siyasətin dövlət başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildiyini vurğulamış, ərazi bütövlüyümüz uğrunda öz canından keçmiş şəhidlərimizin ailələrinə, qazilərə dövlət tərəfindən böyük diqqət və qayğı göstərildiyini qeyd etmişlər.

Daha sonra tədbir milli vətənpərvərlik ruhunda konsert proqramı ilə davam etdirilmişdir.

## Final mərhələsinə yekun

29 iyun 2022-ci il tarixində "Gənc xilasedici və yanğınsöndürən" IX Ümumrespublika birinciliyinin final mərhələsinə yekun vurulub.

Qəbələ Mədəniyyət Mərkəzində təşkil olunmuş mükafatlandırma mərasimində Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili Baş idarəsinin rəisi general-mayor Niyazi Zamanov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, FHN işçiləri, Həmkarlar İttifaqının sədri Mehman İsmayılov, FHN-in İctimaiyyətlə əlaqə idarəsinin rəis müavini polkovnik Məhbubə Mustafayeva, Şimal-qərb Regional Mərkəzinin rəisi polkovnik-leytenant Sadiq Bəkirli, Təhsil, Gənclər və İdman nazirliklərinin nümayəndələri, Qəbələ rayonunun hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri iştirak ediblər.

Əvvəlcə, Dövlət Himninin səsləndirilməsindən sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra yarışlar haqqında FHN-in hazırladığı videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili Baş idarəsinin rəisi general-mayor Niyazi Zamanov qalib komandaları təbrik edib. O, yarışın əhəmiyyətindən danışaraq yarış iştirakçılarına yeni uğurlar arzulayıb.

Bədii hissə ilə davam edən tədbirdə qaliblərə kubok, diplom, Fəxri fərman və qiymətli hədiyyələr, digər iştirakçılara isə Fəxri fərman və xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, komandalar yarışlarda “Maneələr zolağı”, “Kombinə edilmiş yanğın estafeti”, “Axtarış-xilasetmə işi” və “Divar qəzeti” mərhələlərində güclərini sınayıblar. Ümumrespublika birinciliyində birinci yerə Bakı şəhəri 31 nömrəli orta məktəb, ikinci yerə Sumqayıt şəhər 43 nömrəli orta məktəb, üçüncü yerə isə Gəncə şəhər 14 nömrəli orta məktəbin komandası layiq görülüb.

Hər iki tədbirdə çıxış edən şəhid valideynləri onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.